# XƏLİL PAŞA, LENİN VƏ NAXÇIVAN

**Ənvər Paşa və Nuru Paşa haqqında Azərbaycan mətbuatında az-çox məlumatlar olsa da, Hafiz Kamal bəy oğlu Xəlil Paşa haqqında oxucularımızda kifayət qədər məlumat yoxdur. Bu səbəbdən Xəlil Paşanın Türkiyədə bir neçə dəfə böyük tirajla nəşr olunmuş "İttihad və tərəqqidən cümhuriyyətə bitməyən savaş" adlı xatirələr kitabını dilimizə çevirib Azərbaycanımızda nəşr etdirmək qərarına gəldim. Onu da qeyd edək ki, Türk generalı Veysəl Ünüvarın bizim tərəfimizdən Azərbaycan türkcəsinə çevrilib nəşr etdirilən "Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)" xatirələr kitabında Xəlil Paşanın adı bölgə hadisələri ilə əlaqədar tez-tez, həm də ehtiram və minnətdarlıqla yad edilir.**



**ƏBÜLFƏZ QULİYEV**
*AMEA-nın müxbir üzvü*

**Əvvəli ötən sayda**

...Mustafa Kamal Paşa ilə əsas məsələlər üzərində uzun-uzun bəhs etmişdik, əldəki mövcud qüvvələrin vəziyyəti bəlli idi. Söhbət bu məqama yetişdiyi zaman Paşa dedi: Bax Xəlil Paşa, sənə güvənirəm. Komandanlıq sahəsində təcrübə və ustalığını bilirəm. Sənin üçün iki şey düşünə bilərik. Birincisi İzmir cəbhəsi komandanlığı... İkincisi, paşa...əldə silah az, pul yox, silah-sursat vəziyyətimiz fəlakət... Şərqdə sənin adın məşhurdur. İzmir cəbhəsində edə biləcəyindən daha önəmlisini orada edə bilərsən... Rusiya dəyişmişdir. Azərbaycan və İranla müxtəlif kombinasiyalar qura bilərik və beləcə pul və təchizat təmin edə bilərik deyə düşünürəm... Şərqin yardımının əhəmiyyətini başa düşürsən, orada bir nəfəs yolu açmaq məcburiyyətindəyik. Lazım gələrsə bu nəfəs yolundan şərqə çəkilmək məsələsi belə düşünülə bilər, bu nəfəs yolu bizim üçün əhəmiyyətlidir... Həm də bilirsənmi, Paşa, pul işimiz nə haldadır. Sən gəlməmişdən xanımın sənə çatdırmaq üçün beş yüz lirə göndərmişdi. Düz on gündür təmsil heyətindəki yoldaşlar bu pulu üzlərinə tutaraq birtəhər ancaq keçinirik...Nə deyirsən...?

Mustafa Kamal haqlı idi.

-Ən qısa zamanda şərqə doğru yola çıxacağam, Paşa...Sənin könlün rahat olsun...İnşallah, pul da taparıq, silah da...Baxaq görək tale dediyin nə göstərəcək...

...Pasinlər, Ağrı dağı ətəkləri, Bəyazid və Naxçıvan yolumun üstündəydi. İrana doğru gedirdik...

Bəyaziddə Ağrı dağı ətəklərindən Naxçıvanla əlaqəni təmin edən bir yol var idi. Naxçıvanlı İsmayıl ağa da bu yolla davamlı olaraq gedib gələn bir kuryer idi. İsmayıl ağa bələdçi olaraq bizə qoşuldu və eyni istiqamətə getməkdə olan 364 yolçunu da özümüzlə götürüb yola düşdük. İranın Maku qəsəbəsini və Araz çayını keçərək Naxçıvana çatmaq istəyirdim....Atlarımızı qırmanclayaraq sürürdük ki, birdən yanımızdan bir boz atlı iranlı dördnala keçərək uzaqlaşdı. Adamın narahatmış kimi keçməsi diqqətimi çəkdi. Bəlkə də buna görə axşam qaranlıqlaşanda biz bir kənddə gecələmək üçün düşdükdə heç bir kənd evinin qapısı açılmadı, dağlıq bir yerdə atlara istirahət verdik və bu zaman uzaqlardan Ağrı dağı ətəklərindən kürdlərin silah səsləri eşidilirdi. Səfalət dolu bir kənd kənarında bir konflikt çıxmasın deyə gecə yolçuluğuna davam etdik, günəş doğarkən xutor kimi bir kəndə çatdıq...

Araz çayına yaxınlaşdığımız zaman bələdçinin yolu azması üzündən Qaradağın içlərinə gəlib çıxmışdıq və gecəni bir dağ kəndində keçirdik. Sübh erkəndən Araz istiqamətində hərəkət etmək istəyirdik ki, yanımdakı tosyalı Əli çavuş kəndin yolu üstündə qar üzərində qalmış çarıqlı ayaq izlərini göstərdi:

- Paşam, piyada keçmiş, cəld olmaq lazımdır, həm də bizim gedəcəyimiz tərəfə uzanır.

Yol sakit bir vadi boyunca uzanır və yavaş-yavaş yoxuşa çıxırdı.Yoxuşun lap yuxarısına yetişdiyimiz zaman beş-on dəqiqə dayanmaq lazım gəldi, qısa bir kəşfiyyat gərək idi. Yolumuz durduğumuz yüksək nöqtədən təkrar aşağıya doğru enir və bir kəndin içində yox olurdu. Kəndin iki yanındakı qayalar üzərində səhər günəşinin işıqlandırdığı silah lülələri parlayır, bir dəstə adam sağa-sola gedib gəlirdi. Durbini gözlərimə dayadığım zaman yolumuzun yaxşıca kəsildiyini gördüm və Seyidi yanlarına göndərərək Naxçıvana getmək istəyən yolçular olduğumuzu, onlara boş yerə döyüşə girməmələrini söyləməsini tapşırdım. Seyid getdi, amma xeyli zaman keçdiyi halda qayıtmadı, nə hadisə baş verdiyini anlamaq üçün ətrafı gözdən keçirərkən bizə tərəf bir atlının gəlməkdə olduğunu gördüm. Atlı durdu, çevik bir hərəkətlə atdan endi, adını dedi. Son dərəcə gözəl bir türk ləhcəsi ilə danışırdı. İstanbulda uzun müddət ticarətlə məşğul olmuşdu. Nə istədiyini soruşdum. Cavabında:

-Qarşıdakı kənd erməni kəndidir. Bir gecə əvvəl sizin qaldığınız kənddən gələn birisi Naxçıvan komandanı Xəlil bəyin kəndi basmaq üçün irəliləməkdə olduğunu söyləmişdir. Belə bir şeyə təşəbbüs etməyin, kəndə Qaradağ əşirətlərindən Rüstəm xan üç yüz adamla yardıma gəlmişdir....- dedi.

Seyidi yəqin danışdırmışdılar və bu köhnə istanbullu tacir bir də məni yoxlayır olmalıydı. Ona hər şeyi olduğu kimi söylədim.

-Mən Xəlil bəy deyil, bildiyiniz və ya eşitdiyiniz Xəlil Paşayam. Qarşımızdakı erməni kəndinə qarşı da bir düşmənçiliyim yoxdur. Bunu belə bilsinlər, Naxçıvana gedərkən yolu azıb buralara gəlib çıxmışıq... gedin, söyləyin Seyidi buraxsınlar, yoldan da çəkilsinlər.

İstanbullu tacir atına sıçradı, bir az sonra yanında da beş atlı qayıtdı. Hamısı birdən atdan endilər. Aralarından biri nisbətən qoca idi. İstanbullu tacir:

-Sizə təqdim edim, Paşam, bu tərəflərin mütləq hakimi Rüstəm xan....

-Xəlil Paşa...

Qocanın əlini sıxdım, toqquşma təhlükəsi aradan qalxdı. Hamımız bir yerdə erməni kəndini keçdik və sərt dağ yolları ilə Rüstəm xanın kəndinə doğru irəliləməyə başladıq. Rüstəm xan qoca və nəzakətli bir türk bədəvisi idi....

Ertəsi günün səhəri bizi Araz çayının keçid verdiyi yerə qədər yola saldılar. Çay üzərindəki sal ilə Qafqaz sahilinə keçdik və Naxçıvana yetişdik. Naxçıvan camaatı bu zaman 6 ordu zabitin Xəlil bəyin idarəsində milli bir təşkilat yaratmışdı, özlərini İrəvan və Zəngəzur tərəflərindəki ermənilərdən müdafiə etməkdə idilər...

Mayor Xəlil bəyi İraqda tanıyırdım. Cəsur, zirək və silahşordu. Müharibə bitərkən silahları yerə qoymaq zamanında oranın xanlarından birinin qızı ilə evlənmişdir. Ən yaxın qohumları olan Böyük xan və Kalbalı xan yaxşı təhsil görmüş insanlardı. Naxçıvan müstəqil olmayıb Azərbaycana bağlı olması üçün oradan bir vali istəmiş və Səməd bəy adlı bir gənc azərbaycanlı Naxçıvana gələrək idarə işlərini öz öhdəsinə götürmüşdür. Xəlil bəy məni bir ay evində qonaq saxladı. Bu bir ay içində ermənilərə qarşı döyüşən Xəlil bəyin əsgər və zabitlərinin təlimi ilə məşğul oldum. Sonra Araz çayı boyunca hərəkət edib Ordubaddan Qaradağa, oradan da Bakıya getdim.

...Azərbaycan ən bədbəxt günlərini yaşayırdı. Mənlik burada bir iş qalmamışdı, Rusiyaya gedib Anadolunun istədiklərini yerinə yetirəcəkdim. Levandovskidən Moskvaya getmək üçün bir vaqon istədim. O dərhal qatarlardan birinə xüsusi bir vaqon qoşdurdu. Yanımda əmrbərim tosyalı Əli çavuş Moskvaya doğru hərəkət etdim...

...Moskvaya yetişdiyim ilk gün Skoço xarici işlər nazirliyinə mənim Moskvaya gəlmək xəbərimi çatdırdı. Bir-iki saatdan sonra xarici işlər komissarı Çiçerin və onun müavini (Lev Mivayloviç-tərcüməçi) Qaraxanla tanış oldum. Mənim səfərimdən xəbərlərinin olduğu bəlliydi. Amma bunu gizlətməyi bacarırdılar. Anlayırdım ki, bütün hərəkətlərim həmin saat yüksək məqamlar deyilən yerlərə çatdırılırdı. Onda onların bir şey soruşmalarına lüzum yox idi, mən düşüncələrimi söyləyə bilərdim və söylədim:

-Azərbaycan tərəfinizdən bir göz qırpımında işğal edildi, bunu doğru hesab etmirəm...

Çiçerin açıq danışmağı sevirdi. Qaraxana belə bir baxdıqdan sonra bu cavabı verdi:

-Rusya sənayesini mazut üzərində qurmuşdur, ona möhtacdır. İstədiyimiz neftin haqqını ödəyərək belə ala bilmirdik, bu işə onun üçün məcbur olduq. Ancaq bilin ki, Azərbaycanın istiqlalı əbədi qalacaqdır....

-Mən Azərbaycan üçün çox çalışdım, bu işdə siz qalib gəldiniz, zamanın şərtləri,.. və qismət... İndi Ankaranın təmsilçisi olaraq Moskvadayam,vəzifəm bundan ibarətdir...

Çiçerin və onun nazirliyi hələ Türkiyənin vəziyyətini tam olaraq bilmirdilər. Məndən izahat istədilər, cavabım bu oldu:

-Türkiyədə səltənətin hakimiyyəti aradan qaldırılacaqdır. Millət,xalq arasından seçilmiş millət vəkilləri ilə özünü idarə yolunu tutacaqdır. İngiltərə tərəfindən möhkəmləndirilən Yunan orduları Anadoluya çıxmışdır. Türklər başda Mustafa Kamal olmaqla qadınlı-kişili işğalçılara qarşı savaş verərək məmləkəti qarış-qarış müdafiə etməkdədirlər və bu, sonuna qədər də belə olacaqdır. Bunu heç bir qüvvənin və hətta bütün dünya dövlətlərinin belə dayandırmağa qüdrəti çatmaz....Sizin inqilabınızın məqsədi kapitalı yıxmaqdır, kapitalın mərkəzləri London, Paris, Roma olduğuna görə Türkiyəyə hücum edənlərlə Sovetlərin düşmənləri eyni ölkələrdir. Məhz buna görə Rusiya ilə Türkiyənin bu şəraitdə dost olmaları gərəkməkdədir, bu ən təbii və məntiqli yoldur...

Çiçerin Skoço vasitəsi ilə bu sözlərdən məmnun olduğunu ifadə edərək:

-Türkiyəyə yardım etmək istəyirik və bunu etməyə məcburuq...Mənimlə istədiyiniz zaman görüşə bilərsiniz...Burada istədiyiniz kimi hərəkət edə bilərsiniz...Sizi Moskva çayı sahilindəki gözəl bir yerdə müsafir edəcəyik. Qaraxan da eyni binanın başqa bir blokunda yaşamaqdadır...

Sofiskaya Naberejnaya prospektindəki bina olduqca genişdi, böyük bir hissəsi də mənim üçün ayrılmışdı...

Ertəsi gün təkrar görüşdük. Çiçerin Türkiyəyə nə kimi yardım edə biləcəklərini soruşdu, xeyli müzakirə etdik. Ən təxirəsalınmaz ehtiyacların pul və silah-sursat olduğunu dedim. Anadoluda silah və top vardı, ancaq sürəkli savaşlar bunların ehtiyatını azaltmışdı. Keçən müharibədə rusların əlinə alman qüvvələrindən çox sayda miqdarda mauzer ehtiyati və səhra topu mərmisi keçdiyini bilirdim. İlk olaraq bu ehtiyatın göndərilməsinə qərar verdilər.

Mən Moskvaya gələnə qədər Türkiyədən heç kim mənim vəzifəmlə bura gəlməmişdi, ona görə ruslar mənim bu səfərimə çox diqqət göstərirdilər. Səbəbi də təbii ki, Türkiyəyə daha yaxın və mehriban olduqlarını göstərməkdi. Bir dəfə Moskva Opera teatrında şərəfimə "Sevilya bərbəri" tamaşasını verdilər. Operanın baş rolunda dünya miqyasında şöhrətli məşhur Şalyapin çıxış etdi.

Bir neçə gün sonra da piyada və topçu hərbi sursatı Qara dənizdən motorlu qayıqlarla Anadoluya göndərilməyə başlandı. Bu arada 500 min yapon tüfəngini Anadoluya göndərməyi təklif etdilər. Ancaq bir orduda müxtəlif miqyaslı silah olmasının əleyhinə olduğum üçün bu təklifi qəbul etməyərək alman tüfəng və sursatının göndərilməsinin davam etdirilməsində israr etdim. Ankara ilə əlaqə saxlayıb tüfəng başına min, top başına iki min atış hesabı ilə alman istehsalı silah-sursat lazım olduğunu, bunlar az olarsa rus istehsalı top və tüfəng də göndərilə biləcəyini bildirdim.

Növbə pul məsələsinə gəlmişdi. Mənə Ankaraya rubl göndərmək istədiklərini söylədilər, cavab verdim ki:

-Türk xalqı xarici, yabançı pul işlətməyə adət etməyib, qızıl pul isə dünyanın hər yerində olduğu kimi Türkiyədə də keçər, təbiidir ki, nə qədər qızıl verə bilsəniz o qədər işimizə yarayar...

Görüşməkdə olduğum xarici işlər komissarlığı nümayəndələri üç-dörd günlük möhlət istədilər. Təkrar üz-üzə gəldiyimiz zaman məni xarici işlər komissarlığına dəvət etdilər, bu məsələni beş gün müddətində müzakirə etdik... On gün sonra:

-Sizə bir milyon rus qızılı verə bilərik,- dedilər, amma mən bu məbləği az hesab etdim, bazarlıq etməyə başladıq:

-Dörd milyon ancaq işimizə yarayar....

-İndilik iki milyon verək, qalanını sonra verərik...

-Mən bu işdə çənə vurmağı kiçiklik hesab edirəm, dost bir dövlətin yardımı iləmi qarşı-qarşıyayıq, yoxsa....yoxsa...

Heyət rəhbəri birdən-birə təlaşla yerindən qalxdı və gözlərimin içinə baxaraq:

-Çox xahiş edirik, indilik bu üç milyonu qəbul edəsiniz...

Başqa çarə yoxdu, belə olmasına qərar verdik.

Sursat və pul işi sürətlə gedirdi və mən Ankara ilə Moskva arasında bu məsələdə əlaqənin bir tək adam tərəfindən aparılmasını münasib hesab etmirdim. Bu iş üçün Çiçerinə bir neçə iqtisadçı, bir neçə siyasətçi və bir neçə hərbçidən təşkil olunmuş səfarət heyətinin göndərilməsinin lazım olduğunu bildirdim. Belə bir heyətin hazırlanmaqda olduğunu və Ankaraya hərəkət edəcəyi cavabını verdilər.

Bir səfarət heyətinə bənzəyən bu heyətin yolda bir çətinliklə qarşılaşmamaları üçün özümün də onlarla birlikdə gedəcəyimi, külçə qızılları da yanımızca aparacağımızı dedim. Nəhayət, heyət və qızıllar hazır oldu, yanımdakı yük Anadolu savaşının qanı olacaqdı bəlkə də...Silahlarımı hazırladım. Fədakar çavuşumu çağırdım, yükün nə qədər əhəmiyyətli olduğunu ona başa saldım və Bakıdan sonra at və araba ilə davam etmək üzərə qatarla yola düşdük...

Bu səfarət heyətinin və qızılların Türkiyəyə çatdırılması üçün ən təbii yol Qarabağ - Zəngəzur - Naxçıvan üzərindən Maku - Doğu Bəyazid - Qaraköse (indiki Ağrı şəhəri-tərcüməçi) -Ərzurum idi...Yolun Zəngəzurdan Naxçıvana qədər olan hissəsi erməni quldurları ilə doluydu və bu yol daşnak erməni hökumətinin baş komandiri səviyyəsində olan general Dronun nəzarəti altında idi. İngilislərin təsiri altında olan Dro türklərə və ruslara düşməndi. Bizə yol verməmək üçün mütləq hücum edəcəkdi, ola biləcək bu hadisənin qarşısını almaq və fürsət düşmüşkən Dronu əzmək üçün Tavarişə yoldakı təhlükəni izah etdim. Əslən gürcü olan Tavariş, erməniləri sevmirdi, bundan da faydalanmanın yolunu tapdım. Qızılların və heyətin təhlükədə olduğuna onu inandırdım və yolu açıq saxlamaq üçün qüvvəyə ehtiyacımız olduğunu söylədim. Bunun üzərinə Tavariş ordu komandanı Levandovski ilə məsləhətləşərək mənim əmrimlə hərəkət etmək şərtilə bir piyada və bir atlı dviziyası verdi. Bu dəstələr Qarabağ üzərindən irəliləməyə başladı. Dəstə (kalon) Zəngəzurun mərkəzi olan Gorusu keçdikdən sonra biz də Qarabağ istiqamətində yola çıxdıq. Ruslar mənim üçün bir avtomobil ayırmışdılar. Çox xarab vəziyyətdə olan bu avtomobillə Şuşa qalasını keçib Gorusa gəldim.

Əmrimdəki atlı diviziyası bir alayını Naxçıvana doğru sürmüş, ermənilərdən çox çəkinməkdə olan Naxçıvan camaatı da bu alayın gəlişini sevinclə qarşılamışdı. Amma camaatın İrana köç etməsinə mane olmaq üçün onların aralarında görünməyim lazım gəlirdi. Ona görə təmirə ehtiyacı olan avtomobili təkrar göndərmələri üçün Gorusda qoyub, yanımca da əlli nəfərlik kazak atlısı götürüb yola davam etdim. Yavərim Naim Cavad yanımdaydı. Bütün günü yol getdik, ertəsi gün günortaya yaxın böyük bir erməni kəndinə yetişdik. Kəndin ortasındakı karvansaranın həyətində düşdük ki, atlara istirahət verək və biz də yemək yeyək. Karvansaranın həyətə baxan otaqlarının qabaq tərəfində dörd eyvan bir terras vardı. Atlılar atlara qaşov çəkərkən biz terrasa çıxdıq və gətiriləcək yeməkləri gözləməyə başladıq. Elə bu an karvansaranın qapısından qarayanız bir atlı girdi və türkcə uca səslə:

-Camaat, Xəlil Paşanın avtomobili Gorusa gəlibdir, - deyə qışqırdı.

Karvansaranın həyəti kənd adamları ilə dolu idi. Qırmızı kazakların atlara qulluq etmələrini və yemək yemələrini maraqla seyr edirdilər. Qarayanız atlının qışqırması məni ehtiyatlı hərəkət etməyə çağırırdı, ona görə yavərim Naim Cavada dedim:

-Burada çox dayanmağa dəyməz, yolçu yolunda gərək. Elə bu saat sürətlə erməni məntəqəsindən kənara çıxaq, söylə, hazırlaşsınlar...

Yavərim atlıları hazırlaşdırınca mən hesabı ödədim, sürətlə yola çıxdıq və gecəni bir türk kəndində gecələdik. Ermənistan qüvvələrinin baş komandanı Dronun təhdidlərinə ciddi yanaşaraq ürkən Naxçıvan camaatı qafilələrlə Araz çayını keçərək İrana gedirdi. Bizim gəlməyimizi eşidib əli silah tuta bilən naxçıvanlılar bir-birinin ardınca öz ev-eşiklərinə qayıtmağa başlamışdılar.

Biz Naxçıvanda ikən atlı diviziyasının bir qisminin qoruması altında Türkiyəyə getməkdə olan rus səfarət heyəti ilə səkkiz camış arabasına yüklənən qızıllar yola çıxmışdılar. Ermənilərin olduğu bölgədən türklərin olduğu bölgəyə keçən yolun axırında sərt bir dağ silsiləsi ilə dar bir boğaz vardı. Dronun başçılıq etdiyi qüvvələr boğazı tutmuşlar və atlı dəstəsi onlara yaxınlaşan kimi onlara hücum etmişlər, atlılar bu hücuma davam gətirə bilməyərək rus səfarət heyəti ilə birlikdə geri çəkilmişlər. Öküz arabalarına yüklənmiş qızıllar da elə orada qalmışdır.

Xəbər Naxçıvana gələr-gəlməz Naxçıvanın igid oğlanlarından bir neçəsinə yazıb verdiyim məktubu dağ yolları ilə Gorus tərəfinə göndərərək rus piyada diviziyasının başçısına çatdırdım. Məktubda komandandan süvari birliyini piyadalarla qüvvətləndirib hərəkət edərək erməni mövqelərinin dərhal zəbt edilərək boğaz yolunun açılmasının təmin edilməsini tələb etmişdim. Komandan da eyni qərarı vermiş, hücuma keçmiş və bir müddət sonra Dronun davam gətirə bilməyərək qaçmaqda olduğunu bildirmişdilər.

Boğaz və yolun açılması ilə səfarət heyəti qızıl arabaları ilə birlikdə Naxçıvana gəldilər. Dediklərinə görə qızıl yüklü arabaların yeddisi yol üstündə qalmış, bir araba isə yola yaxın təsərrüfata çəkilib samanlıqda gizlədilibmiş. Kəndlilərin sıxışdırılması nəticəsində (qızıllar) bir qədər əskik olaraq ortaya çıxarılmışdı.

Naxçıvanda bir neçə gün istirahət edərək İran tərəfinə keçdik və türk sərhədinin yaxınındakı Maku qəsəbəsində Maku sərdarının qonağı olduq. Ən nəhayət, Türkiyə tərəfinə keçərək Doğu Bəyazidə yetişdik. Doğu Bəyaziddəki dəstə komandanı sinif yoldaşlarımdan edirnəli Cavid bəy idi. Ruslara qonaqpərvərlik etdi, hamısı razı qaldılar.

Doğu Bəyaziddə çox qalmadıq. Qaraköseyə (Ağrı) gəldiyimiz zaman Şərq Cəbhəsi komandanı Kazım Qarabəkirin qərargah rəisi Kazım bəy (orgeneral Kazım Orbay) bizi gözləyirdi. Aramızda qısa bir söhbət oldu. Anlayırdım ki, mən buradan geri dönmək məcburiyyətindəyəm. Heyəti və külçə qızılları ona təslim edərək Qafqaza doğru hərəklət etdim. Vətənə xidmətim davam edəcəkdi...

**QEYDLƏR:**

*1. Rusların XI qırmızı Ordusunun baş komandanı*

*2. Uzun müddət İstanbulda yaşamış türkcə yaxşı danışan bir rusdur.*

*3. Tavariş, dedikdə böyük ehtimalla o zaman Moskvanın Qafqaz üzrə səlahiyyətli nümayəndəsi vəzifəsində çalışan Orconikidze nəzərdə tutulur.*